Layihə
Avropa İttifaqı
tərəfindən maliyyələşdirilir.

RİİB Regional İnkişaf İctimai Birliyi

# AYLIQ BÜLLETEN

SENTYABR 2020



# ƏYANİ **VƏSAİTLƏRİN** HAZIRLANMASI VƏ İSTİFADƏSİ

Dərs planlaşdırmasının mühüm hissəsi təlimdə istifadəsi nəzərdə tutulan vəsaitlərdir. Bu vəsaitlər dərsin məqsədlərinə uyğun və şagirdlər üçün əlçatan olmalıdır. Müəllimlər yaradıcı davranaraq ətrafda asanlıqla tapılan, təkrar emal oluna bilən və təbii materiallardan istifadə edərək vəsaitləri hazırlamağa cəhd göstərə bilərlər. Əyani vəsaitlərin hazırlanması üçün tələblər belədir:

- İnteraktiv, yəni şagirdlərin üzərində işləyə bildiyi vəsait olması;
- Aydın görünməsi;
- Cəlbedici, rəngli və ya qalın şriftdən istifadə;
- Təhlükəsiz olması;
- Dözümlü və asan təmir oluna bilən;
- İstifadəsi əyləncəli olan;
- Dərsin məqsədlərinə müvafiq olması;
- Tullantı materiallarından hazırlanması;
- Bir dəfədən çox istifadəyə yararlı olması.

## ƏYANİ VƏSAİTLƏRİN SAXLANILMASI VƏ İDARƏ EDİLMƏSİ ZAMANI İSƏ BUNLARA DİQQƏT YETİRMƏK LAZIMDIR:

- Resurslar müəllimlər otağı, kitabxana, direktorun otağı və s. yerdə saxlanmalı;
- Müəllimlər vəsaitdən istifadə etdikdən sonra saxlandığı yerə qoymalı;
- Müəllimlər növbəlilik əsasında (yarımillik, yaxud illik) vəsaitlərin inventar siyahısını hazırlamalı və ona nəzarət etməli (bu prosesdə şagirdlər müəllimlərə kömək edə bilər).

Bületten Avropa İttifaqının maliyyə dəstəyi ilə hazırlanıb. Bülletenin məzmununa görə "Regional İnkişaf" İctimai Birliyi məsuliyyət daşıyır və burada ifadə olunan fikirlər heç bir halda Avropa İttifaqının rəsmi mövqeyi kimi qəbul oluna bilməz.

# "İnklüziv və öyrənmə üçün əlverişli sinif" nədir?



Bütün uşaqları sinfimizə toplamaq məsələnin sadəcə yarısıdır. İşin digər yarısı isə onların müxtəlif öyrənmə və davranış ehtiyaclarını qarşılamaqdır ki, bizim sinifdə qalmaq istəsinlər. Bunun üçün isə lazımi mühit yaradılmalıdır. İnklüziv və öyrənmə üçün əlverişli sinifdə pozitiv nizam-intizam cinsi, fiziki, intellektual, sosial, emosional, din, dil və ya digər xüsusiyyətlərindən asılı olmayaraq, bütün uşaqları səmimiyyətlə qarşılayır, yetişdirir və öyrədir. İstənilən sinifdə şagirdlərin öyrənmə yolları bir-birindən fərqlənir. Hər bir uşağın fərdi, yaxud qrup şəklində necə öyrəndiyini aşkara çıxarmaq üçün isə müəllimlə şagirdlər arasında xoş münasibət olmalıdır.

Uşaqlar irsi amillər, yaşadıqları mühit, yaxud şəxsi və ya psixoloji ehtiyacları səbəbindən müxtəlif şəkildə davranır və öyrənirlər. Çox zaman uşaq öz ehtiyaclarının təmin olunmadığını hiss etdikdə, o, pis davrana bilər. Uşaqların pis davranışlarının nədən qaynaqlandığını anlamamaq və onu aradan qaldırmaq, hətta baş verməzdən öncə qabaqlayıcı tədbirlər görmək mümkündür. Bu yolla siniflər bütün uşaqların təhsil almaları üçün inklüziv, səmimi, xoş mühiti olan və pis davranışların nadir hallarda baş verdiyi məkana çevrilə bilər.

İlk baxışdan bu fikir qorxuducu görünə bilər. Çünki bir çox ölkələrdə, eləcə də Azərbaydanca müəllimlər çoxuşaqlı siniflərlə işləyir. Bu zaman onları belə bir sual narahat edə bilər: "Əgər mənim sinfimdə 30 nəfərdən çox uşaq varsa, mən onların hər birinə qarşı fərdi yanaşaraq müxtəlif öyrətmə və nizam-intizam metodlarını necə tətbiq edə bilərəm?"

Biz tez-tez bir şeyi unuduruq ki, uşaqlarda davranış pozuntusu müxtəlif səbəblərdən yarana bilər. Bu səbəblərin bəziləri şəxsi amillər, digəri dərsin öyrədilmə metodundan, sabit şəkildə davam edən muəllimin nitqindən və ya dərsin şagirdlərə maraqsız olduğundan ola bilər. Bundan başqa ailə mühiti də uşaqlara təsir göstərərək onlarda narahatlıq yarada bilər.

Bundan başqa, bəzi hallarda, hər hansı bir hadisə əslində nizam-intizam pozuntusu olmasa belə, müəllim tərəfindən nizam-intizam problemi kimi qiymətləndirilir. Bu yanlış yanaşma uşaqlarda əsəb gərginliyi yarada bilər ki, bu da öz növbəsində nizam-intizamın pozulmasına səbəb olur. Əgər siz uşaqlar üçün daha yaxşı dərs planlamış olsanız, davranış pozuntularının da qarşısını böyük miqyasda ala bilərsiniz. Şagirdləri intizama sövq etməyin ən səmərəli üsulu aktiv təlim mühiti yaratmaqdır. Belə ki, dərsdə həvəslə iştirak edən və daim aktiv olan şagirdlərdə davranış pozuntuları daha az şəkildə müşahidə olunur. Buna səbəb isə onların daima dərsdə olma istəyi və bunun üçün tələb olunan bütün qaydalara əməl etmələridir.



## MÜƏLLİMLƏR ÜÇÜN TÖVSİYƏLƏR:

*Bülletenimizin sentyabr buraxılışında müəllimlərə sinifdə pozitiv təlim üçün tövsiyələri təqdim edirik:*

Pozitiv nizam-intizam düzgün qurulmuş təlim prosesləriylə dəstəklənməlidir. Tədris vaxtı yanlış davranışların qarşısını almaq üçün pozitiv yollar mövcuddur. Onlardan bəziləri aşağıda sadalanıb, digərlərini isə özünüz də fikirləşə bilərsiniz:

- **Fokuslama və yavaş səslə danışmaq.** Dərs başlamazdan əvvəl hər bir kəsin diqqətinin sizdə olmasından əmin olun. Dərsə başlamazdan əvvəl hər kəsin sakitləşməsini gözləyin. Sinifdə tamamilə sükut olduqdan sonra 3-5 saniyə gözləyin. Gözləmə müddətindən sonra dərsə sakit səs tonu ilə başlayın. Çox vaxt yavaş danışan müəllimin sinfi yüksək səslə danışan müəllimin sinfindən daha sakit olur. Şagirdlər müəllimin nə dediyini eşitmək üçün sakit olur.
- **Birbaşa göstəriş.** Əminsizlik sinifdə həyəcan səviyyəsini artırır. Şagirdlərinizə tam olaraq nə baş verəcəyini izah edərək dərsə başlayın. Bu müddətdə sizin və şagirdlərinizin nə edəcəyini göstərin. Siz bəzi tapşırıqlar üçün vaxt məhdudiyyəti qoya bilərsiniz. Dərs müddəti fəaliyyətlərin təsvirini bu cür tamamlaya bilərsiniz: "Mən düşünürəm ki, dərs müddətinin sonunda dostlarınızla danışmaq, kitabxanaya getmək və ya digər dərslər üzrə boşluqları doldurmaq üçün bir az vaxtınız olacaq."
- **Monitorinq.** Şagirdlər yazılı tapşırıqlar yerinə yetirərkən və ya qruplarla işləyərkən ayağa qalxın və ətrafda gəzin. Şagirdlərin işini yoxlayın. Çətinlik çəkən şagird gördükdə onların işini yarımçıq, sakit səslə izah edin. Bu fərdi və hörmətcil yanaşmanız şagirdləri həvəsləndirəcək.
- **Qeyri-verbal ünsiyyət.** Bəzi müəllimlər sinifdə qeyri-verbal işarələrdən istifadə etməklə illər ərzində bir çox bacarıq nümayiş etdiriblər. Məsələn, bəziləri masalarında kiçik zınqırovlardan istifadə edir. Digərləri isə təbaşir və ya qələmi lövhəyə vurur. Qeyri-verbal işarələrə üz ifadələri, bədən duruşu və ya əl işarələri də daxil ola bilər. Sinifdə istifadə etdiyiniz işarə növünü seçərkən diqqətli olmalısınız.
- **Paylaşma.** Siz şagirdlərinizi tanımaq istədiyiniz kimi, onlar sizin haqqınızda məlumatlı olmaq istəyir. Bunun üçün sinifdə şəxsi əşyalarınızı qoyun. Ailə şəkli, hobbi və ya kolleksiyanızdan bir neçə əşya sizinlə şagirdiniz arasında şəxsi söhbətlərin yaranmasına vasitə ola bilər. Onlar sizi daha yaxşı tanıdıqca, intizamla bağlı daha az problemlərlə üzləşəcəksiniz.
- **Nəzərə çarpmayan müdaxilələr.** Səriştəli müəllim sinfindəki fəaliyyəti izləyir və problemləri qabaqcadan görür, başqalarının diqqətini ona yönləndirmədən və nəzərə çarpmadan yanlış davranan şagirdə yaxınlaşır və problemi yerində həll edir.

**Mənbə:** "Xüsusi kitabça 1: İnklüziv və öyrənmə üçün əlverişli sinifdə pozitiv nizam-intizam" https://www.inkluzivtehsil.az/book/16.html



Layihə
Avropa İttifaqı
tərəfindən maliyyələşdirilir.

RİİB Regional İnkişaf İctimai Birliyi

# Müəllim təcrübəsi



## GÜLNARƏ QƏMBƏROVA

*Nərimanov rayonu 212 nömrəli tam orta məktəbin ibtidai sinif müəllimi*

Müəllim kimi səriştəmi artırmaqda daim maraqlı olmuşam və bu məqsədlə mütəmadi olaraq təlimlərdə iştirak edirəm. Təlimlər mənim təhsilə, şagirdlərə və əlillik məsələlərinə olan münasibətimə çox müsbət təsir göstərib.

Təlimlərdəki fəaliyyətim mənim təhsilə, şagirdlərimə, ümu-miyyətlə insanlara münasibətimi dəyişdi. Sinifdə şagirdlərə öz hüquq və vəzifələrini anlatdım. Şagirdlərin bərabər hüquqlu olmalarını onlara öyrətdim. Onlarla bərabər özüm də öyrəndim. Böyük təcrübə qazandım. Elə buna görə də əlilliyi olan uşaqları öz həmyaşıdları ilə birgə təlimə cəlb etməyə çalışıram. Bütün uşaqların təlimdə fəal olması, bacarıqlarının üzə çıxması mənim üçün vacib olan amillərdən biridir. Bu məqsədlə əlilliyi olan şagirdlər də daxil olmaqla bütün şagirdlər arasında əməkdaşlığın qurulmasına şərait yaradıram.

Uşaqlar arasında mehriban münasibətlərin yaranması üçün valideynləri də fəaliyyətə  cəlb edirəm. Çünki hər bir valideyn öz övladını  yaxşı tanıyır. Uşaqların xoş münasibəti, biri-birilərini olduqları kimi qəbul etməsi valideynlər arasında da  sıx münasibət yaradır, valideynlərin əlilliyi olan uşaqlara qarşı münasibətini müsbətə doğru dəyişir, hətta əlilliyi olan uşaqlara dəstək olmaq üçün dərs prosesində lazım olan vəsaitlərin hazırlanmasında da yaxından kömək edirlər.

Sağlam və öyrədici mühitin yaradılması təlimin keyfiyyətini artırır, uşaqların  maraq dairəsini genişləndirir, fəallıqları üçün yeni imkanlar, üsul, metod və strategiyaların tətbiqi üçün  şərait yaradır. Əlbəttə ki, belə yanaşma bir müəllim kimi məni də həvəsləndirir. Hər gün biri-birindən maraqlı dərslər qurmağa cəhd  edirəm. Dərsləri keçərkən elektron lövhədən, müxtəlif elektron vasitələrdən, musiqi alətlərindən istifadə edirəm, bir sözlə, təlimin ünuversal olması üçün bütün imkanları səfərbərliyə alıram.

Dərs prosesində şagirdlərimə bərabər imkanlar yaratmaq əsas məqsədlərimdən biridir. Fəliyyətimiz zamanı hər bir uşağa diqqətlə yanaşaraq onların maraq dairəsini təmin etməyi özümə borc bilirəm.

Uşaqların ünvanına xoş sözlər, dəyərverici ifadələr işlədirəm. Bu münasibətim onlarda özünəinam formalaşdırır, dərsə həvəsini artırır, digər uşaqların rəğbətini qazanır, ümumilikdə yaxşı nəticələr əldə edirik. Sağlam mühit, sağlam ruh, təhsilə marağı artırır.

Təhsilin keyfiyyətini artırmaq məqsədilə sinif tədbirləri də keçirirəm. Bu tədbirlərdə də hər bir uşağın bacarıqlarını nəzərə alaraq onlara uyğun mahnılar, şeirlər və rollar verirəm. Tədbirə valideynlər də qoşulur, bizə yaxından kömək edirlər. Tədbirlərdə məktəb rəhbərliyini də dəvət edirəm. Uşaqlar böyük həvəslə rəhbərlik qarşısında çıxış edir. Rəhbərliyin də bu istiqamətdə olan dəstəyi uşaqlarda məktəbə sevgini artırır. Məktəb və rayon tədbirlərində də sinfimin şagirdləri iştirak edirlər.

Təlimin keyfiyyətini artırmaq üçün keçilən mövzularla bağlı uşaqları teatra, gəzintiyə və ekskursiyalara aparıram. Məqsədim onların daha çox məlumatlanması və öyrənməsidir. Ekskursiya zamanı uşaqların gördükləri daha yaxşı yadda qalır. Bunu uşaqlara esse yazdırmaqla yoxlayıram. Əlilliyi olan uşaqların öyrəndiklərini isə onların bacarılarına uyğun, məsələn çəkdikləri şəkillər əsasında qiymətləndirirəm.

Sinfimdə hər bir şagirdim mənim üçün dəyərlidir. Hər birinin gələcəyinin uğurlu olmasını arzu edirəm və bunun üçün çalışıram!